Xalq qəzeti.- 2023.- 24 fevral.- S.6.

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 54** **Bakı şəhəri, 18 fevral 2023-cü il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 1 mart tarixli 48 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin apardığı reyestrə daxil olmaq üçün banklar və bank olmayan kredit təşkilatlarının müraciətlərinə baxılması Qaydası"nda dəyişiklik edilməsi barədə***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 1 mart tarixli 48 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 3, maddə 249; 2016, № 11, maddə 1964; 2018, № 9, maddə 1938; 2022, № 3, maddə 291) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin apardığı reyestrə daxil olmaq üçün banklar və bank olmayan kredit təşkilatlarının müraciətlərinə baxılması Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

1.1. 2.1.6-cı yarımbənddə "Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası (bundan sonra – Maliyyə Bazarlarına Nəzarət Palatası)" sözləri "Azərbaycan Respublikasının Mərkəzi Bankı (bundan sonra – Mərkəzi Bank)" sözləri ilə əvəz edilsin;

1.2. 4.2-ci bənddə "bank qarantiyası üzrə öhdəliklərini" sözləri "bu Qaydanın 4.1-ci bəndində nəzərdə tutulan vəzifələri" sözləri ilə əvəz edilsin;

1.3. 4.3-cü bənddə "Maliyyə Bazarlarına Nəzarət Palatasına" sözləri "Mərkəzi Bankına" sözləri ilə əvəz edilsin;

1.4 5.1-ci bəndin cədvəli aşağıdakı redaksiyada verilsin:

| **Kredit təşkilatları** | **Bir qarantiya üzrə öhdəliyin maksimum həddi (reyestrə daxil edilən tarixə kredit təşkilatının məcmu və nizamnamə kapitalına nisbətən faizlə)** | **Qüvvədə olan qarantiyalar üzrə öhdəliklərin maksimum həddi (reyestrə daxil edilən tarixə kredit təşkilatının məcmu və nizamnamə kapitalına nisbətən faizlə)** |
|---|---|---|
| Bank | məcmu kapitalın 1 faizindən çox olmamaqla | məcmu kapitalın 10 faizindən çox olmamaqla |
| Bank olmayan kredit təşkilatları | nizamnamə kapitalının 0,5 faizindən çox olmamaqla | nizamnamə kapitalının 3 faizindən çox olmamaqla |

1.5. Qaydaya 7 nömrəli əlavə - "Banklar və bank olmayan kredit təşkilatlarının Reyestri" üzrə:

1.5.1. 6-cı sütunda "Bir qarantiya məbləğinin maksimal həddi, ABŞ dollarına ekvivalent məbləğ ilə" sözləri "Bir qarantiya üzrə öhdəliyin maksimum həddi (bankların məcmu kapitalına, bank olmayan kredit təşkilatlarının nizamnamə kapitalına nisbətən faizlə)" sözləri ilə əvəz edilsin;

1.5.2. 7-ci sütunda "Eyni zamanda verilən qarantiya məbləğlərinin yekun maksimal həddi, ABŞ dollarına ekvivalent məbləğ ilə" sözləri "Eyni zamanda qüvvədə olan belə qarantiyalar üzrə öhdəliklərin maksimum həddi (bankların məcmu kapitalına, bank olmayan kredit təşkilatlarının nizamnamə kapitalına nisbətən faizlə)" sözləri ilə əvəz edilsin.

**2.** Bu Qərar dərc edildiyi gündən 30 (otuz) gün sonra qüvvəyə minir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***